2018-ci ilin yanvar ayında muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən aparılan ticarət əməliyyatları nəticəsində 26144,6 min ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi yaranmışdır. Xarici ticarət dövriyyəsinin 23902,1 min ABŞ dollarını yaxud 91,4 faizini ixrac, 2242,5 min ABŞ dollarını yaxud 8,6 faizini idxal təşkil etmişdir.

İxracın dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 23 milyon 902 min 100 ABŞ dollar təşkil etmiş, 21 milyon 659 min 600 Amerika Birləşmiş Ştatları dolları dəyərində müsbət saldo yaranmışdır.